# Bir müdrikin tərəfi

Nəsimi əşari dilində əzbər,
Kəlməsi cəvahir dürri-sümuzər.
Ustadlar divanın tutubdur rəhbər,
Yad edir Seyidi cənnət-məkani,
Şair-filosof mövlanə Bilal Şirvani.

Sən kasıb süfrəsinə qazanmı çəkdin!?
Qumrini-Racini yazammı çəkdin!?
Bilal təxəllüsüylə Azanmı çəkdin!?
Bəqədri-qüvvədə dövri-zamani,
Şair-filosof mövlanə Bilal Şirvani.

Sözün sərrafısan yox bərabərin,
Nizami, Firdovsi, Xəyyam sərvərin,
Məhsəti, Natəvan, dillər-əzbərin,
Hər ləhzə nəzmə çək ruhi-rəvani,
Şair-filosof mövlanə Bilal Şirvani.

Göylərin sirri var, yerin məqami,
Dövr edir çərxidə düzgün nizami,
Zahidin səcdəsi nədir məramı!?
Fürsətdi, Əziz də deyir pünhani,
Aləmlər zikr edir ol ki, Sübhani,
Şair-filosof mövlanə Bilal Şirvani.

Cəzb etdi səni şəmsi-qəmər damda dayandın,
Eşq ilə gedib Arifi-ürfanda dayandın,
Ərşin adı gəldi həmin o anda daayndın,
Ruhən kəh-kəşani ya asimani,
Pak iman ilə gəzdin fəzani
Şair-filosof mövlanə Bilal Şirvani.

Bəmdir qəzəlin hərdəm olur ki, zilə çıxdım,
Ümmanları sürətlə üzüb sahilə çıxdın,
Tər qönçəni üzdün, o səbəbdən gülə çıxdın,
Şüəra-əhlinin əsli bağbani,
Şair-filosof mövlanə Bilal Şirvani.

***Əziz NOVXANILI,***
***Bakı şəhəri,***
***13 noyabr 2020-ci il.***

Kredo.- 2021.- 29 oktyabr.- S.15.